*Azərbaycanda inkişafın və tərəqqinin bünövrəsi 31 il bundan əvvəl qoyulub. Ulu öndər Heydər Əliyev 1996-cı ildə regionlaşmanın həyata keçirilməsinin, regional siyasətin işlənib hazırlanmasının zəruriliyini qeyd edib. Bu illər ərzində iqtisadi, siyasi, hərbi baxımdan planlı və ardıcıl iş aparılıb. Qeyd edək ki, bu dövrdə ölkənin siyasi və iqtisadi durumunda sabitlik yaradıldı, davamlı inkişaf üçün proqram müəyyən edildi. Eyni zamanda Heydər Əliyev Azərbaycan xalqının Qarabağın işğalı ilə barışmayacağını qətiyyətlə bildirərək beynəlxalq tribunalardan Ermənistanın hərbi təcavüzünə son qoyulmasını tələb edir, bəyanatlar səsləndirirdi. Ömür vəfa etmədi, ümummilli liderin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri həll etmək onun layiqli varisi İlham Əliyevin çiyinləri üzərinə düşdü.*

# İqtisadi siyasət, insan amili, quruculuq, gələcəyə baxış

2003-cü ildə seçicilərin böyük səs çoxluğu ilə Prezident seçilən cənab İlham Əliyevin qaşısında üç əsas məsələ dayanırdı: ölkənin iqtisadi gücünü artırmaq, müasir ordu quruculuğu və torpaqları işğaldan azad etmək. Mübaliğəsiz demək olar ki, hər üç istiqamətdə nəhəng və misilsiz işlər həyata keçirildi. Lider qətiyyəti sayəsində bu gün güclü Azərbaycan qalib ölkədir, diktə edəndir, onunla hesablaşırlar, etibarlı tərəfdaşdır, dünyanın 120 ölkəsini əhatə edən Qoşulmama Hərəkatına sədrlik edib, dünyada müstəmləkəçiliyə, irqçiliyə qarşı mübarizə aparır. Ölkə iqtisadiyyatı durmadan şaxələndirilir, silahlı qüvvələrimiz istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir, şəxsi heyətin döyüş ruhu isə çox yüksəkdir. Hərbi arsenalımız ən müasir döyüş silahları ilə təchiz edilib. Həyata keçirilən iqtisadi islahatlar qısa dövr ərzində ölkədə makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin edib, dinamik inkişafa təkan verərək əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının yerinə yetirilmə səviyyəsi ilə yaxından tanış olmaq məqsədilə mütəmadi bölgələrə səfər edən dövlət başçısı İlham Əliyev əhalinin arzu və istəkləri ilə maraqlanır, təklif və təşəbbüslərinin reallaşmasını, lazımi tədbirlərin görülməsini yerli idarəetmə orqanlarına əsas vəzifə kimi tapşırır. Bu gün paytaxt və bölgələr arasında fərqin aradan götürülməsi də bu inkişafın göstəricisidir.

## Gələcəyə baxış

Dövr, zaman çox tez dəyişir, onunla ayaqlaşmaq və düzgün qərarlar vermək güclü xarakterə malik, aydın və dəqiq baxışları olan liderlərə xasdır. Dünya siyasətində məşhur olan Çörçill deyib ki, siyasət bir sənət olaraq ustalıq tələb edir. Siyasi ustalıq odur ki, sabah, bir həftədən sonra, bir aydan sonra, gələn il nə olacaqsa, onları qabaqcadan xəbər verəsən, sonradan həmin hadisələr baş verdikdən sonra onları izah etməyəsən. Prezident, Qalib Ali Baş Komandan İlham Əliyev Azərbaycan tarixinin səhifələrinə şanlı Qələbəni və həqiqətin təntənəsini yazıb, iki yüz illik erməni işğalına son qoyub, torpaqlarımızda erməni separatizminin kökünü kəsib.Prezident İlham Əliyev xarizmatik liderdir, görkəmli dövlət xadimidir, öz ölkəsini və doğma xalqını bütün sərhədləri aşaraq dünyaya tanıdıb. Çox az sayda siyasətçi mənfi hadisələrin qarşısını ala, prosesi xalqın xeyrinə dəyişə bilir. Prezident İlham Əliyev onlardan birincisidir. Sirr deyil ki, bu fəaliyyət dünya güclərinin maraqlarının toqquşduğu, çox çətin bir regionda yerləşən, müxtəlif neqativ ssenarilər cızılan Azərbaycanı bütün təhlükələrdən qoruyur, haqqın və ədalətin keşiyində dayanır.

Prezidentin gələcəyə baxışı artıq dünyada məşhurlaşan Azərbaycanın iqtisadi modelini yaratdı. Eyni zamanda "mən Azərbaycan xalqı üçün yaxşı prezident olacağam" sözləri son 22 ilin və dövrün leytmotivi olub. Heç uzağa getməyək, Azərbaycanın məhsul istehsalına görə dünyanın lider dövləti olması ölkə rəhbərinin yürütdüyü iqtisadi siyasətin parlaq göstəricisidir. Prezidentin iqtisadiyyatın inkişafı və idarə olunması istiqamətində imzaladığı qanun və fərmanlar, o cümlədən yoxsulluğun azaldılması, regionların inkişafı ölkədə demokratik mühit yaradıb. Təsadüfi deyil ki, son illər Azərbaycan qüdrətli dövlətə çevrilib və ölkəmizdə, sözün əsl mənasında, nəhəng qlobal və pozitiv dəyişikliklər baş verir. Bu dəyişikliklərin müəllifi İlham Əliyevdir.

2003-cü ildə Prezident seçilən İlham Əliyev sosial-iqtisadi inkişafda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş ölkədə regionlarda sahibkarlığın inkişafını sürətləndirməyi oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafını, əhalinin məşğulluğunun artırılmasını və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasını həlli vacib məsələ kimi qarşıya qoydu. Məhz buna görə də regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədilə I Dövlət Proqramı qəbul edildi. Çünki əldə olunan nailiyyətlərlə yanaşı, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində hələ də həll edilməmiş problemlər qalırdı. Azərbaycanın sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərin əksər hissəsinin Bakı şəhərində yerləşməsi və eyni zamanda regionlarda olan bir çox müəssisələrin, istehsal və xidmət obyektlərin fəaliyyətinin zəifləməsi və ya tamamilə dayanması əhalinin ölkə paytaxtına axınına səbəb olmuşdu. Bu amillər, öz növbəsində, iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərmiş, regionların inkişafında fərqi artırmış, bir çox yerlərdə sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyəti ağırlaşdırmışdı. Ona görə də regionlarının inkişafında müşahidə olunan vəziyyət mövcud potensialdan səmərəli istifadə etməklə regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsini və onlar arasında fərqin minimuma çatdırılmasını tələb edirdi.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda 2004-2008-ci illərdə ayrı-ayrı rayonlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin və dəstəyinin əsas istiqamətləri müəyyən olundu. Dövlət Proqramının əsas məqsədi ölkənin rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsi, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması, məşğulluğun, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılması və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsi idi. Bundan başqa, Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində torpaqların 20 faizi zəbt olunmuş, işğal altında qalan rayonlarda mövcud iqtisadi potensial talan edilmiş, istehsal-texniki və infrastruktur obyektlər dağıdılmış, xalqımız çoxsaylı insan tələfatına məruz qalmış, bir milyona yaxın vətəndaş öz yaşayış və iş yerlərini, var-dövlətlərini itirərək məcburi köçkün vəziyyətinə düşmüşdü. Əlbəttə, çox ağır bir miras qalmışdı.

Azərbaycanda aparılan torpaq və aqrar islahatları nəticəsində regionlarda yaşayan əhalinin çox hissəsinin torpaq və digər daşınmaz əmlak sahibinə çevrilməsinə baxmayaraq, insanlarda ilkin kapitalın, eyni zamanda aqrar sektorun inkişafını təmin edən şəraitin, o cümlədən texnikanın, servisin, məsləhət xidmətinin, infrastrukturun, emal müəssisələrinin kifayət qədər olmaması imkanlardan səmərəli istifadə edilməsini məhdudlaşdırırdı. Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulurdu. Regionlarda müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri açmaq, yerli resurslardan istifadənin səmərəsini artırmaq, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək, aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün regionlarda fermerlərə və digər kənd təsərrüfatı işçilərinə kömək məqsədilə müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirmək, investorların regionlara cəlb olunması üçün əlverişli şərait və yeni iş yerləri yaratmaq dayanırdı. Eyni zamanda əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq da hədəflər arasında idi.

Məlum olduğu kimi, ölkənin iqtisadi rayonları potensialına, təbii sərvətlərinin miqyasına və çeşidinə, məşğulluq səviyyəsinə görə bir-birindən fərqlənirlər. İqtisadi, coğrafi və tarixi baxımdan iqtisadi rayonları fərqləndirən amillər iqtisadi-coğrafi mövqeyi, təbii şəraiti və ehtiyatları, əhalinin məskunlaşması səviyyəsi, regionun sahə və ərazi quruluşu və tarixi inkişaf xüsusiyyətləridir. Birinci Dövlət Proqramı həmin vaxt 10 iqtisadi rayonu əhatə etdi. Bu barədə dövlət başçısı deyib ki, 2004-cü ildə birinci proqramın qəbul edilməsi Azərbaycan regionlarının inkişafında xüsusi rol oynamışdır. Mən birinci proqramın qəbul edilməsi haqqında hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində fikirlərimi bildirmişdim. Demişdim ki, əgər mənə etimad göstərilərsə, ilk növbədə Azərbaycanın regionlarının inkişafı ilə məşğul olacağam, xüsusi proqram qəbul ediləcəkdir.

## Paytaxtla regionlar arasında fərq aradan qalxır

Belə də oldu, proqram qəbul edildi. Birinci beşillik proqram demək olar ki, regionlarda böyük dönüş yaratdı. Ümumiyyətlə, 2004-cü ildə əgər birinci Dövlət Proqramı qəbul edilməsəydi, bugünkü Azərbaycan reallıqları tam fərqli ola bilərdi. Regionların inkişafı, sahibkarlara verilən dəstək, qeyri-neft sektorunun inkişafı, idxaldan asılılığın azaldılması, ixrac potensialının yaradılması son illərin uğurlarıdır. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması Dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlərdir. Ümumilikdə 4 Dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. Regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb, əhalinin nominal gəlirləri isə 10,5 dəfə artıb. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. 2004-cü ildən indiyədək ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib və elektrik enerjisinin 76 faizi regionlarda istehsal edilir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94 faizi ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9 faizdən 73 faizə çatıb. Bu illərdə 9 hava limanı tikilib və yenidən qurulub. Laçın hava limanının tikintisi isə davam edir. Həmin müddətdə əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, 43 Olimpiya İdman Kompleksi, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. Həm də istehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir. Dövlət başçısının tapşırığına əsasən, Naxçıvanın sosial-iqtisadi inkişafına dair proqram və strateji layihələrin icrasına başlanılıb ki, bu da regionda rifahın yüksəlməsinə, biznes fəaliyyətinin genişlənməsinə münbit şərait yaradır. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramı çərçivəsində həyata keçirilən fəaliyyət uğurlu nəticələrlə yadda qalıb. Regionlarda abadlıq-quruculuq geniş vüsət alıb, müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələri, sosial infrastruktur obyektləri açılıb, əhalinin məşğulluq səviyyəsi artıb. Regionlarda aqrar sahəyə dövlət tərəfindən göstərilən dəstək tədbirləri gücləndirilib, rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasına xüsusi əhəmiyyət verilib. Ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasının bir istiqaməti kimi sahibkarlığın inkişafına mühüm önəm verilib, onlara göstərilən elektron xidmətlərin əhatə dairəsi genişləndirilib. Güzəştli kreditlər hesabına investisiya layihələri maliyyələşdirilib və kiçik sahibkarlığın daha da inkişafı üçün müvafiq tədbirlər görülüb. Ötən illərdə bölgələrdə pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çaycılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirilib, bir neçə Dövlət proqramı qəbul edilib. Nəticələr göz qabağındadır.

Prezidentin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər) əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının inkişafının təmin edilməsi, rayonlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur. Dövlət Proqramının uğurlu icrası bütün regionların inkişafında yeni mərhələnin yaranmasına səbəb olmuş, formalaşmış əlverişli iqtisadi mühit ölkənin sosial-iqtisadi inkişafı sahəsində başlanmış tədbirlərin davam etdirilməsi zərurətini yaratmışdır. 2006-cı ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində ölkəyə böyük valyuta axını başlamışdır. O illərdə iqtisadi artım daha çox neft amilinə bağlı idi. Prezident bu barədə deyib: "Ancaq biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə edə bilmişik. Bu sahədə də Azərbaycan təcrübəsi nümunə ola bilər. Şəffaflıq təmin edildi, neft gəlirləri artırıldı, eyni zamanda əldə edilmiş gəlirlər iqtisadiyyatın real sektoruna, infrastruktur layihələrinə istiqamətləndirildi. Yəni hesab edirəm ki, biz burada da çox düzgün balans saxlaya bilmişik. Valyuta ehtiyatlarımız ildən-ilə artır. Ancaq, eyni zamanda, ölkə iqtisadiyyatına böyük investisiya qoyulmuşdur. Bu investisiya hesabına sahibkarlığın inkişafı, infrastruktur layihələrinin icrası mümkün olmuşdur. İndi Azərbaycanı bunlarsız təsəvvür etmək mümkün deyildir".

Birinci Dövlət Proqramının yaratdığı inkişaf və tərəqqi özünü işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda daha aydın göstərir. Bölgəyə reinteqrasiya kompleks xarakter daşıyır və ərazilərin iqtisadi dirçəlişi ilə yanaşı, sosial inkişaf da diqqət mərkəzindədir. Burada yaşayış üçün rahat şərait təmin edilir, sosial müdafiənin gücləndirilməsi, xidmətlərin qabaqcıl standartlara uyğun təmin olunması və məşğulluğun artırılmasına mühüm diqqət yetirilir. Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar. "Ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin edir. Azad edilmiş torpaqların dirçəlişi və reinteqrasiyası ümumilikdə ölkənin iqtisadi potensialının artmasına geniş imkanlar vəd edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 2021-ci ildən bu günədək 22 milyard manata yaxın vəsait ayrılıb. Bununla yanaşı, bərpa və quruculuğa özəl investisiya cəlb olunması əsas məqsəddir. İnvestisiya cəlbi ilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, məhsuldar ərzaq istehsalına əsaslanan dayanıqlı təcrübələrin tətbiqi, turizmin təşviqi və digər tədbirlər gerçəkləşdirilir. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə buraya yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri həyata keçirilir. Bölgədə fəaliyyət göstərən müəssisələr üçün əlverişli investisiya mühiti yaradılıb. İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından azad edilib. Regionda fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət (gəlir), torpaq, əmlak və sadələşdirilmiş vergidən də azad olunub. Sahibkarların maliyyəyə çıxış imkanlarının artırılması məqsədilə kreditlərə dövlət zəmanətinin verilməsi və faizlərin subsidiyalaşdırılması ilə bağlı elektron platforma hazırlanıb. Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meyilləri qeyri-resurs iqtisadiyyatının inkişafı üçün imkanlar yaradır. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli potensialı var və bu, xarici investorların marağını cəlb edir. Artıq bu sahədə xarici investisiyalı müəssisələrin yaradılması ilə bağlı addımlar atılıb. Hər iki bölgədə həyat yenidən canlanır, keçmiş məcburi köçkünlər doğma yurdlarında firavan həyat sürürlər.

**Salman ALIOĞLU,**
**"Respublika".**